AZƏRBAYCAN RESPUBLİKASININ NAZİRLƏR KABİNETİ

QƏRAR

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 12 aprel tarixli 163 nömrəli Qərarı ilə təsdiq edilmiş "Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi" publik hüquqi şəxsin tabeliyindəki tibb müəssisələrinin Siyahısı"nda dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Quba rayonunun bəzi ərazi vahidlərinin adlarının dəyişdirilməsi haqqında" Azərbaycan Respublikasının 2026-cı il 12 may tarixli 404-VIIQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 1 iyun tarixli 1053 nömrəli Sərəncamının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 12 aprel tarixli 163 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 4, maddə 757 (Cild I); 2024, № 7, maddə 910, № 12 (II kitab), maddə 1443) ilə təsdiq edilmiş "Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi" publik hüquqi şəxsin tabeliyindəki tibb müəssisələrinin Siyahısı"nın 42.5-ci bəndində aşağıdakı dəyişikliklər edilsin:

1. "Alekseyevka" və "Vladimirovka" sözləri çıxarılsın.

2. "Yuxarı Digah" abzasından sonra aşağıdakı məzmunda yeni abzaslar əlavə edilsin:

"Çinarlı
Elbir".

Əli Əsədov
Azərbaycan Respublikasının Baş naziri

Bakı şəhəri, " 3 " " noyabr " 2026-cı il

№ 370